**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**UNEC**

# ELMİ ŞURA

**23 aprel 2021-ci il**
**(online)**

# QƏRAR EŞ №178

**SƏDRLİK ETMİŞDİR** **REKTOR PROF. Ə.C. MURADOV**

**ELMİ KATİB:** **Ə.Ə. MUSTAFAYEVA**

**İŞTİRAK ETMİŞDİR:** Universitetin Elmi Şurasının 39 üzvündən 36 üzvü

## E Ş İ D İ L D İ:

***Təlim və tədris texnologiyaları üzrə prorektor dos. A. Rzayev***
*UDID və Minor proqramları haqqında*

## Q Ə R A R A A L I N D I:

1.***UNEC Universitet Daxili İki Diplom Proqramı (UDİD) üzrə Qaydalar*** təsdiq edilsin.

2. ***UNEC İxtisas üzrə Minor Təhsil Proqramının Qaydaları*** təsdiq edilsin.

3. ***UNEC-də İxtisas üzrə istiqamətlər*** təsdiq edilsin.

4. UDİD və ixtisaslar üzrə əlavə təhsil proqramlarının idarə və koordinasiya edilməsi üçün ***UNEC İki diplom və ixtisas üzrə əlavə təhsil Şöbəsi*** yaradılısın.

5. Təlim və tədris texnologiyaları üzrə prorektor dos. Anar Rzayevə tapşırılsın ki:

- 2021/2022-ci tədris ilindən UNEC-də UDİD Proqramı, Minor Təhsil Proqramına dair Qaydaların və İxtisas üzrə istiqamətlərin tətbiqi ilə bağlı tədbirlər planını hazırlayıb UNEC rektoruna təqdim etsin;
- UNEC-də UDİD və Minor Təhsil Proqramlarının tətbiqi ilə bağlı Azərbaycan Respublikasının Təhsil Nazirliyinə müraciət hazırlasın.

***QEYD***: *UNEC-də UDİD Proqramı, Minor Təhsil Proqramına dair Qaydaların və İxtisas üzrə istiqamətlərin tətbiqi ilə bağlı Tədbirlər Planı qərara əlavə olunur*

**ELMİ ŞURANIN SƏDRİ** **PROF. Ə.C. MURADOV**

**ELMİ ŞURANIN KATİBİ** **Ə.Ə. MUSTAFAYEVA**

**"TƏSDİQ EDİRƏM"**
Azərbaycan Dövlət İqtisad
Universitetinin rektoru, professor

Ə.C. Muradov

23 aprel 2021-ci il

# *UNEC Universitet Daxili İki Diplom Proqramı (UDİD) üzrə*

## *Q A Y D A L A R*

# UNEC

# Universitet Daxili İki Diplom Proqramı (UDİD)



**Bakı - 2021**

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qaydalar "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"na, "Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları"na, "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili qaydaları"na və Avropa Kredit Transfer Sisteminə uyğun olaraq hazırlanmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 348 Saylı "Ali Təhsil Müəssisələrinin Bakalavriat və Magistratura Səviyyələrində Kredit Sistemi ilə Tədrisin Təşkili Qaydaları"ı haqqında qərarının 3-cü maddəsinin 3.2. bəndinin 3.2.6. yarımbəndinə əsasən -*"Tələbəyə bakalavriat səviyyəsində gələcək peşə fəaliyyətində istifadə etməsi və ya oxşar ixtisas üzrə (təhsil proqramında tədrisi nəzərdə tutulan fənlərin və onlara ayrılan kreditlərin ən azı 70 faizi eyni olduğu halda) əlavə təhsil alması məqsədi ilə bu Qaydaların 3.2.5-ci yarımbəndinin tələbləri gözlənilməklə, ödənişli əsaslarla müvafiq ixtisasların fənnini (fənlərini) seçmək hüququ da verilir. Bu şərtlərlə əlavə təhsil alanlara həmin ixtisas üzrə bakalavr dərəcəsi və müvafiq diplom verilir."*

1.2. Bu qaydalar Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC-də) "Universitetdaxili İki Diplom Proqramının (UDİD) " açılması, proqrama müraciət, qəbul, təhsil alma şərtlərini müəyyən edir.

## 2. PROQRAMIN MƏQSƏDİ

2.1. UDİD Proqramının məqsədi bakalavriat səviyyəsində qəbul olunduğu ixtisaslarda müvafiq tələblərə cavab verən tələbələrə təhsil aldıqları ixtisasla yanaşı, ikinci ixtisas üzrə də əlavə təhsil almaqla bakalavr dərəcəsi vermək, özlərini rəqabətədavamlı mütəxəssis kimi yetişdirmək, gələcəkdə əmək bazarında layiqli yer tutmaq və onun tələblərinə çevik uyğunlaşmaq imkanı yaratmaqdan ibarətdir.

## 3. PROQRAMIN AÇILMASI

3.1. UNEC-də hər hansı iki ixtisas üzrə UDİD Proqramının açılması üçün həmin ixtisasların təhsil proqramlarında nəzərdə tutulan fənlərin və onlara ayrılan kreditlərin ən azı 70 %-i eyni olmalıdır.

3.2. Hər tədris ilinin sonunda növbəti ildə UDİD Proqramı üzrə açılması təklif olunan proqramların siyahısı UNEC-in müvafiq struktur bölməsi tərəfindən aidiyyəti üzrə razılaşdırmaqla təsdiq olunması üçün UNEC rektoruna təqdim edir.

3.3. UDİD proqramında iştirak edəcək ixtisaslar, ixtisaslar üzrə qəbul planı xüsusi şərtlər (varsa) barədə

qərarlar UNEC Elmi Şurası tərəfindən qəbul edilir və proqramın başlamasına 3 ay qalmış tələbələrə elan olunur.

3.4. UNEC Rektorunun əmri ilə UDİD sənədlərinin qəbulu və dəyərləndirilməsi üçün Komissiya yaradılır.

## 4. PROQRAMA QƏBUL

4.1. Hər bir ixtisas üzrə UDİD Proqramına qəbul planı universitetə həmin ildə bu ixtisasa tələbə qəbulunun 10 % dən çox ola bilməz. Müraciət edən tələbələrin sayı qəbul planından artıq olarsa, bu zaman akademik göstəriciləri daha yüksək olan tələbələr proqrama qəbul ediləcəkdir.

4.2. Tələbə UDİD Proqramına təhsilinin üçüncü semestrindən etibarən qoşulur.

4.3. Bütün təhsil müddəti ərzində ayrı-ayrı fənlər üzrə göstəricisi 71-100 bal arasında olan tələbələr proqrama müraciət edə bilərlər.

4.4. UDİD proqramına qəbul prosesi universitet tərəfindən əvvəlcədən müəyyən olunur və qəbul planı ilə birlikdə tələbələrə elan olunur.

4.5. UDİD Proqramına qəbul üçün tələbələr 30 iyun tarixindən 15 avqust tarixinədək aşağıda qeyd olunan sənədləri müvafiq qurumun elektron ünvanına təqdim edirlər:

1. UNEC rektorun adına yazılan ərizə;
2. Akademik transkript;
3. Digər sənədlər (4.6 bəndində qeyd edilən məsələlərlə əlaqədar dil sertifikatları və UNEC-də keçirilən dil imtahanlarının nəticələri haqqında)

4.6. Tələbə UDİD proqramında birinci ixtsasın tədris dili ilə yanaşı, digər tədris dilləri üzrə də iştirak edə bilər. Digər tədris dilində UDİD Proqramına qoşulan tələbənin orta təhsilinin həmin dildə olmasına, dil biliyini sübut edən Sertifikatın mövcudluğuna baxılır və ya tələbə Universitet tərəfindən keçirilən müvafiq xarici dil imtahanında iştirak edir.

4.7. Müraciətlər tədris ilinin başlanmasına iki həftə qalanadək UDİD üzrə yaradılmış müvafiq komissiya tərəfindən qəbul prosesinin təşkili qaydalarına uyğun dəyərləndirilir və proqrama qəbul edilən tələbələrin siyahısı Rektorun əmri ilə rəsmiləşdirilərək elan edilir.

4.8. UDİD Proqraminda iştirak ödənişlidir. UDİD Proqramında təhsil alan tələbələrin ikinci ixtisas üzrə dinlədiyi fənlər üzrə təhsil haqqının məbləği fənlərin kredit sayına uyğun olaraq həmin ixtisas üzrə bir kredit üçün nəzərdə tutulmuş təhsil haqqına əsasən müəyyənləşdirilir.

4.9. 700 bal toplayaraq UNEC-ə daxil olmuş və UDİD proqramına qoşulan tələbələrin ödənişi Universitetin vəsaiti hesabına həyata keçirilir.

4.10. 600 və daha yüksək bal toplayaraq UNEC-ə daxil olmuş və UDİD Proqramına qoşulan tələbələr Proqram üzrə təhsil haqqının 50%-i həcmində ödəniş edir, digər 50% isə Unverstetin vəsaiti hesabına ödənilir.

## 5. PROQRAMIN TƏTBİQİ

5.1. UDİD Proqramına qəbul edilən tələbələr üçün universitetin müvafiq strukturu tərəfindən aidiyyəti ixtisasların təhsil standartları, tədris planları, ixtisas üzrə məzunların əldə etməli olduğu bilik, bacarıq və vərdişlər dəyərləndirilərək UDİD Proqramı üzrə xüsusi tədris qrafikləri hazırlanır. Birinci ixtisas üzrə akademik məsləhətçi həmin tədris qrafiki əsasında tələbənin UDİD fənlərinə qeydiyyatını və onun tədris prosesinə nəzarətini həyata keçirir. Hər bir tələbə üçün semestr başlamazdan əvvəl Fərdi tədris planları tərtib olunur ki, burada tələbənin həm birinci həm də ikinci ixtisasda dinləməsi tələb olunan bütün fənlər qeyd olunur. UDİD Proqramına qoşulmuş tələbənin bir semestr üzrə dinlədiyi fənlərin kreditlərinin cəmi 40 kreditdən çox ola bilməz. Tələbənin fərdi tədris planında hər iki ixtisas üzrə Fakultə (mərkəz) rəhbərlərinin və akademik məsləhətçilərin imzaları olur.

5.2. UDİD Proqramında iştirak edən tələbə ikinci ixtisas fənlərinin kreditlərini yalnız Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) toplamalıdır.

5.3. UDİD Proqramının iştirakçısı olan tələbə bu qaydaların 5.2., 7.2. və 6.5. maddələrinin tələbləri nəzərə alınmaqla mübadilə proqramında iştirak edə bilər.

5.4. Universitetdən kənar qazanılan və birinci ixtisas Proqramı tərəfindən qəbul edilən ortaq fənlərin kreditləri UDİD ixtisası tərəfindən də tanınır.

5.5. UDİD Proqramına qoşulan tələbələrin akademik borclarının ləğvi müvafiq qanunvericilik əsasında həyata keçiriləcəkdir.

5.6. UDİD Proqramı tələbəsinin birinci ixtisas üzrə akademik borcu yaranarsa, növbəti semestr Fərdi Tədris Planına ilk olaraq həmin fənni daxil etməlidir. Bu fənn həmin semestrdə tədris olunmadığı təqdirdə tələb istisna edilir.

5.7. UDİD Proqramı tələbəsi qanunvericiliyin tələbləri çərçivəsində Yay semestrində iştirak edə bilər.

5.8. UDİD Proqramının iştirakçısının həm birinci, həm də ikinci ixtisas üzrə İstehsalat təcrübəsi/lahiyəni yerinə yetirməsi məcburidir. UDİD Proqramı üzrə nəzərdə tutulan fənlərin kreditlərini müvəffəqiyyətlə toplayan tələbələr

ikinci ixtisas üzrə İstehsalat təcrübəsi/lahiyəyə yalnız birinci ixtisas üzrə Yekun lahiyəni müvəffəqiyyətlə yerinə yetirdikdən sonra buraxılır.

5.9. Əsas ixtisas proqramı üzrə akademik məzuniyyət verilmiş tələbə UDİD Proqramı üzrə də akademik məzuniyyətdə hesab edilir.

5.10. UDİD Proqramı üzrə təhsil alan tələbə ikinci ixtisas üzrə təqaüd müsabiqəsində iştirak edə bilməz və UDID Proqramı üzrə əldə etdiyi nəticələr ÜOMG-də nəzərə alınmır.

## 6. PROQRAMDAN MƏZUN OLMA

6.1. UDİD Proqramının məzunlarına birinci və ikinci ixtisas proqramları üzrə ayrı-ayrılıqda akademik transkript verilir. Bu zaman tələbənin birinci ixtisas proqramından qazandığı ümumi (hər iki ixtisasın tədris planına daxil olan) kreditlər müvafiq semestrlər üzrə UDİD ixtisasının transkriptinə də daxil edilir.

6.2. Tələbənin birinci ixtisas proqramı ilə ikinci ixtisas proqramı üzrə əldə etdiyi nəticələr ayrılıqda dəyərləndirilməlidir. UDİD Proqramı üzrə akademik göstəricilər tələbənin birinci ixtisasdan məzun olmasına təsir etmir. Birinci ixtisasdan məzun olan tələbəyə birinci ixtisas üzrə bakalavr diplomu verilir.

6.3. Həqiqi hərbi xidmətə çağrılan birinci ixtisas məzunlarına hərbi xidmət müddəti bitənədək akademik məzuniyyət verilir. Həqiqi hərbi xidmət başa çatdıqdan sonra universitetin tələbələri sırasına bərpa olub UDİD proqramına davam etmək istəyənlər (6.5-də qeyd olunan müddət ərzində) müvafiq kreditləri toplaya bilərlər.

6.4. Əsas ixtisas proqramı üzrə məzun ola bilməyən tələbə UDİD Proqramı üzrə məzun ola bilməz. Birinci ixtisasdan məzun olmaq şərti ilə UDİD Proqramını tamamlayan tələbəyə ikinci ixtisas üzrə də diplom verilir.

6.5. Tələbə təhsil aldığı birinci ixtisas proqramından məzun olana qədər UDİD Proqramının iştirakçısı ola bilər.

## 7. PROQRAMDAN ÇIXMA

7.1. Tələbə, öz istəyi ilə UDİD Proqramından çıxa bilər.

7.2. Ardıcıl iki semestr üzürsüz səbəbdən UDİD Proqramı üzrə qeydiyyatdan keçməyən tələbə proqramdan çıxarılır.

7.3. UDİD Proqramından çıxan (çıxarılan) tələbə bu proqrama eyni və ya başqa ixtisas üzrə təkrar qəbul edilə bilməz.

7.4. UDİD Proqramından çıxan (çıxarılan) tələbənin həmin dövrə qədər UDİD ixtisası üzrə qazandığı, lakin

birinci ixtisası tərəfindən qəbul edilməyən kreditləri, həmin ixtisas üzrə Minor Proqramının (əgər bu ixtisas üzrə Minor Proqramı nəzərdə tutulubsa) tələbələrinə cavab verərsə, müvafiq proqram çərçivəsində tanına və tələbənin müraciətinə əsasən sertifikat verilə bilər.

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**UNEC**

# ELMİ ŞURA

**31 MAY 2022-Cİ İL**

# QƏRAR EŞ № 183

**SƏDRLİK ETMİŞDİR** **REKTOR PROF. Ə.C.MURADOV**

**ELMİ KATİB:** **Ə.Ə. MUSTAFAYEVA**

**İŞTİRAK ETMİŞDİR:** Universitetin Elmi Şurasının 42 üzvündən 38 üzvü

## E Ş İ D İ L D İ:

***Tədrisin metodiki və keyfiyyət təminatı mərkəzinin direktoru dos. Eldar Azadov***

*Qaydalara dəyişiklik edilməsi haqqında*

## Q Ə R A R A  A L I N D I:

1. UNEC Elmi Şurasının 23 aprel 2021-ci il tarixli EŞ-178 saylı qərarı ilə təsdiq edilmiş UNEC Universitet Daxili İki Diplom Proqramı (UDİD) üzrə Qaydaların 4.6-cı bəndinə müvafiq dəyişikliklər edilməklə UNEC-də UDİD proqramına ingilis dilində qoşulan tələbələrin xarici dil bilik səviyyələri aşağıdakı göstəricilər əsasında qiymətləndirilsin:

- ***İELTS sertifikatı üzrə 5 və daha yüksək bal;***
- ***TOEFL sertifikatı üzrə 91 və daha yüksək bal;***
- ***00122 "Xarici dildə işgüzar və akademik kommunikasiya-2" fənni üzrə imtahan nəticəsi 91-100 (A) bal.***

2. Təqdim olunan göstəricilər ***UNEC İxtisas üzrə Minor Təhsil Proqramına qoşulan tələbələrə də şamil edilsin.***

**ELMİ ŞURANIN SƏDRİ** **PROF. Ə.C. MURADOV**

**ELMİ ŞURANIN KATİBİ** **Ə.Ə. MUSTAFAYEVA**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**UNEC**

# ELMİ ŞURA

**16 SENTYABR 2022-Cİ İL**

# QƏRAR EŞ № 184

**SƏDRLİK ETMİŞDİR** **REKTOR PROF. Ə.C.MURADOV**

**ELMİ KATİB:** **Ə.Ə. MUSTAFAYEVA**

**İŞTİRAK ETMİŞDİR:** Universitetin Elmi Şurasının 40 üzvündən 36 üzvü

## E Ş İ D İ L D İ:

***Tədrisin metodiki və keyfiyyət təminatı mərkəzinin direktor müavini Nəvai Əliyev***

*UDİD proqramı haqqında*

## Q Ə R A R A A L I N D I:

UNEC Elmi Şurasının 23 aprel 2021-ci il 178 saylı qərarı ilə təsdiq edilmiş UNEC Universitet Daxili İki Diplom (UDİD) proqrmaı üzrə Qaydaların 4.3-cü bəndi dəyişdirilərək aşağıdakı redaktədə təsdiq edilsin:

- "bütün təhsil müddəti ərzində ümumi orta müvəffəqiyyət göstəricisi 71-100 bal arasında olan tələbələr proqrama müraciət edə bilərlər".

**ELMİ ŞURANIN SƏDRİ** **PROF. Ə.C. MURADOV**

**ELMİ ŞURANIN KATİBİ** **Ə.Ə. MUSTAFAYEVA**